

# CV (Tərcümeyi Hal)

## Şıxəliyev Yavər Şıxali oğlu

**Şəxsi məlumat:** Mən 1948-ci ildə Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Biləv kəndində fəhlə ailəsində anadan olmuşam Ordubad şəhərində M.T.Sidqi adına orta məktəbi bitirərək Azərbaycan Tibb Universitetinin Müalicə-Profilaktika fakultəsinə daxil olmuşam və 1972-ci ildə universiteti bitirmişəm. Mənim ictimai fəaliyyətimə Bakı şəhərinin baş ftiziatrı, Mərkəzi Həkim Məsləhət Komissiyasının sədri, ftiziatriya ixtisası üzrə sertifikasiya komissiyasının sədri, respublika üzrə spesifik dərmanlara davamlı xəstələrin müalicəsinə nəzarət komissiyasının sədri və s vəzifələr daxildir. İşlədiyim müddətdə respublikada, o cümlədən Bakı şəhərində vərəmin epidemik stabilliyi istiqamətində gördüyüm işlərə və qüsursuz fəaliyyətimə görə dəfələrlə Azərbaycan, Naxçıvan Səhiyyə Nazirliyinin fəxri fərmanları ilə təltif olunmuşam. Azərbaycan Respublika prezidentinin fərmanı ilə Azərbaycanın "Əməkdar həkim" adına layiq görülmüşəm.

**İş təcrübəsi:** Naxçıvan Respublika Vərəm Əleyhinə Dispanserinə 1973-cü ildən Baş həkim vəzifəsinə təyin olunmuşam. Yerli və xarici tibb ədəbiyyatlarında 200-dən çox elmi məqalələrim dərc olunub. Təşkilatçılıq qabiliyyətimi nəzərə alaraq məni 1986-cı ildə Naxçıvan şəhər Səhiyyə şöbəsinə müdir vəzifəsinə keçirmişlər. 1989-cu ildə konkurs əsasında Azərbaycan Elmi Tədqiqat Ağ ciyər Xəstəlikləri İnstitutunda Elmi təşkilat şöbəsinə müdir vəzifəsinə təyin olunmuşam. Həmin ildən institutun Elmi şurasının üzvüyəm. Bakı şəhərində vərəmin epidemioloji vəziyyətinin gərginliyi nəzərə alınaraq 1993-cü ildə Bakı şəhərinin Mərkəzi Vərəm Dispanserinə baş həkim vəzifəsinə təyin olunmuşam. Hal –hazıra kimi bu vəzifədə çalışıram.

**Təhsil:** Ordubad şəhərində M.T.Sidqi adına orta məktəbi bitirərək Azərbaycan Tibb Universitetinin Müalicə-Profilaktika fakultəsinə daxil olmuşam. Moskva şəhərində Mərkəzi Elmi Tədqiqat Vərəm İnstitutunda 1984-cü ildə "Ucqar dağ kəndlərində vərəmin erkən aşkarı və müalicəsinin təkmilləşdirilməsi", 2001-ci ildə "vərəm residivlərinin erkən aşkarı və müalicəsinin təkmilləşdirilməsi" mövzusunda namizədlik və doktorluq dissertasiyalarını müvəffəqiyyətlə müdafiə etmişəm.

**Əlavə kurslar:** Mən keçmiş SSR-inin aparıcı tibb müəssisə və institutlarında cərrahiyyə, rentgenologiya, terapiya ixtisasları üzrə təkmilləşdirmə kurslarında olmuşam.

**Kompyuter bilikləri:** **MS office**

**Dil bilikləri:**

Azerb. - əla
İnglis - orta
Rus - əla
Türk - orta